# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN XARİCİ SİYASƏTİ PARLAMENT SƏNƏDLƏRİNDƏ

**S.Ə.İSMAYILOV**
*Bakı Dövlət Universiteti*

Məlumdur ki, XX əsrin əvvəllərində Azərbaycanda genişlənən milli-azadlıq hərəkatının rəhbərləri Osmanlı dövlətinin hərtərəfli köməyinə böyük ümid bəsləyirdilər. Dünya müharibəsi ərəfəsində Rusiyada antitürk əhval-ruhiyyəsinin qızışdırılması, Qafqaz müsəlmanlarını Rusiyadan narazı salmaqla yanaşı, türk əhalisinin Osmanlı dövlətinə qarşı təbii meylini gücləndirmişdi. Göstərilən dövrdə Osmanlı oriyentasiyalı milliyyətçi qüvvələrin yaydığı bəyannamədə açıq-aydın surətdə göstərilmşdi: "Biliniz və agah olunuz ki, bizim yeganə çareyi-nicatımız Türkiyənin istiqlalı və onun tərəqqisidir."[1]

Rusiyada fevral inqilabının baş verməsindən sonra Azərbaycanda baş vermiş bir sıra hadisələr–mart soyqırımı, erməni hərbi hissələrinin azərbaycanlı əhalini kütləvi surətdə qırmaları və türk-müsəlman əhalisinə qarşı yönəldilmiş digər aktlara qarşı Müvəqqəti hökumət, onun məhəlli orqanları və Zaqafqaziya Seymi tərəfindən heç bir tədbir görülməməsi, Azərbaycan xalqının məhvolma təhlükəsi qarşısında qalması, milli-azadlıq hərəkatı liderlərində Azərbaycana kömək edəcək yeganə qüvvənin Türkiyə olacağı ideyasını daha da möhkəmləndirdi. Nuru paşanın 300 nəfər hərbi təlimatçı ilə Gəncəyə gəlməsi və əhalinin onlara münasibəti M.Ə.Rəsulzadə tərəfindən belə xarakterizə edilirdi: "O zaman müdhiş anarşiyə məruz, digər tərəfdən də bolşevik təcavüzü ilə təhdid olunan Gəncə Nuru paşanın göydən enmiş xilaskar bir mələk kimi tələqqi etmişdi. Xalqın kəndisinə yapdığı istiqbal Gəncə tarixində görülməmişdi." [2]

Türkiyə tərəfi də öz növbəsində Zaqafqaziya hökumətinin dağılacağı təqdirdə Türkiyə ilə geniş sərhədləri olan Azərbaycan dövlətinin yaranmasına tərəfdar olduğunu və onun Türkiyə tərəfindən müdafiə olunacağını bildirmişdi.[3] 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti elan olunduqdan sonra iyunun 4-də Osmanlı və Azərbaycan Cümhuriyyəti arasında sülh və dostluq haqqında müqavilə imzalandı. Bu müqaviləyə əsasən Osmanlı dövləti "qayda-qanunu və ölkənin təhlükəsizliyini təmin etmək üçün ehtiyac olduğu təqdirdə Azərbaycan hökumətinə silahlı qüvvələrlə yardım etməyi" öz öhdəsinə götürürdü.[4]

---

[1] 28 may 1919-cu il. Azərbaycan Cümhuriyyəti istiqlalının birinci sənəyi dövriyyəsi. B.,1919
[2] "Azərbaycan" qəzeti, 1918, □41
[3] "Azərbaycan" qəzeti, 10 yanvar 1919, □84
[4] "Azərbaycan" qəzeti, 12 yanvar 1919, №85

Türkiyə hərbi qüvvələrinin köməyi ilə Bakını bolşevik-daşnak qaragüruhundan azad etmiş Azərbaycan hökuməti tezliklə öz paytaxtına köçərək burada öz fəaliyyətini davam etdirməyə başlamışdı. Məhz bu dövrdə Azərbaycan və Türkiyə arasında hərtərəfli əməkdaşlığın əsası qoyulmuşdu.

1918-ci il oktyabrın 30-da imzalanmış Mudros sülh müqaviləsi Azərbaycanın beynəlxalq vəziyyətini kökündən dəyişdirməklə yanaşı, Türkiyə qoşunlarının Azərbaycandan çıxarılmasını, Zaqafqaziyaya dəmir yolu üzərindəki nəzarətin Antantaya güzəştə gedilməsini rəsmiləşdirdi. Mudros müqaviləsi türk qoşunlarının Azərbaycanı tərk etməsi ilə yanaşı, həm də Bakının ingilis qoşunları tərəfindən işğalını da nəzərdə tuturdu. Bununla da bu dövr Azərbaycan Cümhuriyyətinin Türkiyə oriyentasiyası dövrünün bitməsi, onun qərb oriyentasiyasına meyllənməsi dövrü hesab edilir.[5]

Maraqlıdır ki, Türkiyənin I dünya müharibəsində məğlub olmasına, Türkiyənin Azərbaycanda hərbi mövcudluğuna son qoyulmasına baxmayaraq, sonrakı dövrlərdə Azərbaycan Xalq Cümhuriyyətinin Osmanlı dövlətinə münasibəti müsbət olaraq qalırdı. Azərbaycan Parlamenti və hökumətinin nümayəndələri xüsusilə Türkiyənin Azərbaycanın böhranlı dövründə ona göstərmiş olduğu qardaşlıq köməyini minnətdarlıqla xatırlayırdılar. 1918-ci il dekabrın 7-də Baş nazir F.X.Xoyski Parlamentin açılışı zamanı etdiyi çıxışında Cümhuriyyətin elan olunması ərəfəsində Azərbaycanın daxili vəziyyətini xarakterizə edərək deyirdi: "...Bir vaxt idi ki, bir kənddən o biri kəndə getmək qorxulu idi, gecə yatanda sabaha çıxmaq ümidi yox idi. Heç kəsin irz və namusu əmniyyətdə deyildi... Hökumətə lazım olan idarələrin hamısı başdan-başa dağılmış idi, xidmətçilər qaçmışdılar...Güclü olanlar özünü ağa hesab edirdilər."[6] F.X.Xoyski çıxışında Türkiyə ilə sülh əhdnaməsi bağlamasına toxunaraq hökumətin ölkədə qayda-qanun yaratmaq üçün heç bir silahlı qüvvəyə malik olmadığını qeyd edərək bununla Türkiyədən hərbi yardım alınmasını əsaslandırırdı. F.X.Xoyski çıxışında Türkiyənin göstərdiyi misilsiz yardımı belə səciyyələndirir: "Özünüz bilirsiniz ki, Türkiyə öz borcunu yerinə yetirdi. Qonşumuzun köməkliyi ilə mümkün olmayan bir çox şeylər çətinlik ilə yavaş-yavaş əldə edilirdi."[7] Azərbaycanın məhz nə üçün yardım xahişilə Türkiyəyə müraciət etməsini baş nazir iki istiqamətdə izah edir. F.X.Xoyski birinci səbəbi belə əsaslandırır: "...Bu təklif ilə başqasına müraciət etmək mümkün deyil idi. İstəsək də bir fayda olmaz idi. Türkiyə həm dinimiz, həm vətənimiz idi. Ona görə də ondan kömək istədik."[8] İkinci səbəb isə belə izah olunur: "Türkiyəyə müraciətimizin əsl səbəbi də paytaxtımızı əlimizə qaytarması idi."[9]

Göründüyü kimi baş nazirin bu çıxışında real tarixi gerçəkliklər əks olunmuşdur. Doğrudan da, bu dövrdə Bakının bolşevik-daşnak qaragüruhunun əlində olduğu, Azərbaycan hökumətinin isə real hərbi qüvvəyə malik olmadığı dövrdə yeganə düzgün çıxış yolu Türkiyə ilə hərbi əməkdaşlıqdan ibarət idi.

---

[5] ARDA, f.28, siy.1, iş 33
[6] ARDA, f.894, siy.10, iş 86
[7] ARDA, f.894, siy.10, iş 98
[8] ARDA, f.894, siy.10, iş 112
[9] ARDA, f.894, siy.10, iş 192

Bununla yanaşı, qeyd etmək lazımdır ki, parlamentdə türklərin Azərbaycanda hərbi mövcudiyyəti haqqında fikirlər birmənalı olmamışdır. Parlament sənədlərinin bir çoxunun təhlili göstərir ki, bəzi deputatlar türklərin Azərbaycanda olmaları zamanı yol verilən bəzi qanunsuzluqları önə çəkərək, ümumilikdə hökuməti onların qanadları altına sığınmaqda ittiham edirdilər. Bu baxımdan parlamentin 1919-cu il 5 fevral tarixli 13-cü iclasında "Hümmət" partiyasının üzvü Ağamalovun çıxışı daha xarakterikdir. Ağamalov öz çıxışında ölkədə mövcud olan bir sıra neqativ halların – rüşvətxorluğun, özbaşınalığın türklərdən miras qaldığını iddia edərək, hökuməti parlamentin təşkil etmədiyini önə çəkərək qeyd edirdi: "Əgər hökuməti parlament tiksə idi, belə olmazdı, amma parlament tikmədi. Nuru paşanın qanadı altında tikildi, adını da qoydular...Nə bilim Azərbaycan Cümhuriyyəti."[10]

"Hümmət"çi Ağamalovun əsassız ittihamları digər deputat Sultan Məcid Qənizadənin çıxışında qətiyyətlə və faktlarla rədd edilmişdir. Natiq çıxışında göstərirdi ki, "bu istiqlaliyyət və hürriyyət azərbaycanlılara türklərin əli ilə əta edilmişdir. Azərbaycan, Gürcüstan və Ermənistan hökumətlərinin öz rəsmi kağızları ilə isbat edərəm ki, nəinki Azərbaycana, hətta Gürcüstan və Ermənistana da istiqlaliyyəti türklər vermişdir."[11] Parlamentin digər deputatı M.Ə.Rəsulzadə Azərbaycan-Türkiyə münasibətlərinə daha geniş aspektdə toxunaraq türklərin Azərbaycana dəvət edilməsini Azərbaycanın həyatının təhlükədə olması ilə əlaqələndirir. M.Ə.Rəsulzadə türk qoşunlarının Azərbaycana dəvət edilməsinin səbəblərini belə izah edir: "Çünki türklər gəlməsəydi Bakıda vüqu bulan mart hadisəsinin təsiri yalnız Bakıda qalmayıb bütün Azərbaycana istila edəcəkdi, millətdə ümumi bir qitalə məruz qalacaqdı."[12] Xalq hərəkatının lideri daha sonra türklərin Azərbaycanda yol verdikləri bəzi qanunsuzluqlarla əlaqədar göstərirdi: "İşdə bu ali məqsəd üçün türklər buraya dəvət olunmuşlardı və burada əgər bəziləri tərəfindən bir takım üsulsuz hərəkət vaqe olmuşsa, o kimi münfəridən icra olunan ədəbsizlikləri bizi xilasa qoşmaqdan başqa günahları olmayan fədakar Türk Ordusuna, Anadolu Məhmədcikləринə təhlil etmək olmaz...Əcəba türk əsgərləri tərəfindən görülən bəzi şiddətləri görürkən rus inqilabçı ordusunun cəbhədən qayıdarkən bütün dəmir yolu ilə müsəlman füqarəyi-kasibəsi üzərinə yapdıqları hədsiz-hesabsız və həqsiz samosudları unutduqmu əcaba." [13]

Parlament sənədlərinin təhlili göstərir ki, Azərbaycan-Türkiyə əməkdaşlığı bərabərhüquqlu müstəvidə inkişaf etmişdir. Keçmiş sovet tarixşünaslığında iddia edildiyi kimi bu heç də Türkiyənin Azərbaycanı müstəmləkəyə çevirmək, onu idarə etmək cəhdlərindən irəli gəlmirdi. Türk əsgərlərinin Azərbaycana gəlməsi məsələsinə toxunarkən M.Ə.Rəsulzadə parlamentdəki çıxışında bu aktı belə xarakterizə edirdi: "...Zira onlar əsgər halında gəlmişlərdir, idarə üçün deyil, dedilər. Əvət, bulunduğumuz Türkiyə mərkəzlərinin heç birində heç bir türk siyasinin ağzından "biz oraya idarə məqsədi ilə gəlmək istəyiriz" -deyə bir söz

[10] ARDA, f.895, siy.1, iş 1
[11] ARDA, f.895, siy.1, iş 9
[12] ARDA, f.895, siy.1, iş 11
[13] ARDA, f.895, siy.1, iş 13

eşitmədik. Biz bunu əlbəttə bilirdik ki, türklər buraya idarə etmək və Bakıyı İstanbula qoşmaq istəmirlərdi."[14]

Parlament sənədlərində bu və ya digər dərəcədə əks olunmuş Azərbaycan-Türkiyə əlaqələrinə dair məlumatların təhlili göstərir ki, Azərbaycan istiqlalının əldə edilməsində, ölkənin türk-müsəlman yurdu kimi öz varlığını saxlamasında, Osmanlı Türkiyəsinin müstəsna rolu olmuşdur. Bununla yanaşı ilk dəfə olaraq dövlətlərarası əlaqələr səviyyəsində qurulan Azərbaycan-Türkiyə əlaqələri bir sıra anlaşılmazlıqlarla da müşahidə olunmuşdur. Bu ilhaqçı siyasət yeridənlərin əlində alətə çevrilmiş Nuru paşa və digər türk zabitlərinin dövlət işlərinə müdaxilə etmələrindən və onların yol verdikləri bəzi özbaşınalıqlardan ibarət idi.

Bununla yanaşı qeyd etmək lazımdır ki, Sultan Türkiyəsinə fiziki varlığının qorunmasına görə borclu olan Azərbaycan heç zaman istiqlaliyyətini və suverenliyini Türkiyəyə də güzəştə getməyə razı olmamışdır.

Mərkəz dövlətlərinin, xüsusilə də Türkiyənin müharibədə məğlub olması beynəlxalq şəraiti köklü surətdə dəyişdirməklə yanaşı, yeni yaranmış AXC-nin taleyini də təhlükə altında qoymuş oldu. Yaranmış vəziyyət AXC hökumətindən xarici siyasətində yeni beynəlxalq münasibətlərə uyğun düzəlişlər həyata keçirməyi tələb edirdi. Xalqın böyük qurbanlar bahasına əldə etmiş olduğu suverenliyi nəyin bahasına olursa-olsun qoruyub saxlamağı özünün əsas hərəkət xətti kimi qəbul etmiş AXC hökuməti Mudros müqaviləsini qəti surətdə pisləyərək bununla bağlı Türkiyəyə və Antanta ölkələrinə qəti etirazını bildirdi. Antantanın ingilis qoşunlarının timsalında Bakını işğal etməsi hökumət tərəfindən Azərbaycanın suveren hüququna qəsd kimi qiymətləndirildi və diplomatik yollarla bu akta qarşı müqavimət göstərildi. Bununla yanaşı hökumətin bacarıqlı və çevik siyasi xətti tez bir zamanda ingilis komandanlığını özünün ölkə ərazisində yeganə legitim hakimiyyət olmasına inandırmaqla yanaşı, həm də hökumətin ölkənin suverenliyinin qorunub saxlanılmasında qəti mövqe tutduğunu da isbat etdi.

Azərbaycan Xalq Cümhuriyyətinin ingilis komandanlığı ilə münasibətləri kontekstində Azərbaycanın əvvəl Avropa, sonradan isə geniş, hərtərəfli dünya əməkdaşlığına qoşulmaq cəhdlərini özündə əks etdirən xarici siyasət xəttinin təməli qoyuldu.

Müttəfiqlərin Bakıya daxil olması, ingilis komandanlığının siyasəti, bunun Azərbaycanın suverenliyinə təsiri və s. kimi məsələlərə baş nazir F.X.Xoyski parlamentin açılışı günü etdiyi çıxışında toxunaraq deyirdi: "İngilislər ən qədim mədəni və hüquq muxtariyyəti müdafiə edən bir millətdir. İngilislərin hakimiyyəti altında hamıdan çox müsəlman var. Onlar ingilislər ilə çiyin-çiyinə dava edirdilər. Burası göstərir ki, ingilislər onların hüququna təcavüz etmir və özlərindən incitmiyorlar. Bizimlə də onlar arasında heç bir inciklik ola bilməz. Bundan naşıdır ki, Amerika, İngiltərə, Fransa dövlətləri ümumi sülh konfransında vəkilən Azərbaycanda asayişi müdafiə üçün buraya əsgər göndərmək istədikdə, hökumət etiraz etmədi və hökuməti ilə Milli Şura onların gəlmələrinə razı oldular. Çünki, onların vürudundan millətin hüququna və Azərbaycanın istiqlalına zidd və xəta görülməyirdi. Bizim rizamız ilə müttəfiqlər gəldilər. Şimdi görürsünüz ki, heç bir zərər də olmadı və hüququmuzu əlimizdən almaq istəməmişlərdi. Millətin həqq və hüququ

[14] ARDA, f.895, siy.1, iş 25

və havadarı olan daxili işlərimizə əsla əl uzatmırlar."[15] Lakin məlumdur ki, ingilis komandanlığının Azərbaycana qarşı müsbət fikri göründüyü kimi asanlıqla formalaşmamışdı. İngilis komandanı general Tomson Bakıya gəldikdən 2 gün sonra verdiyi bəyanatda Qafqazı Rusiyanın bir hissəsi hesab edərək Rusiyanın 1914-cü il hüdudularını bərpa etməkdə müttəfiqinə yardım göstərəcəyini bildirmişdi. Lakin bununla yanaşı o Azərbaycan hökumətinin nümayəndəsi ilə görüşdə ölkənin daxili işlərinə nə indi, nə də sonralar qarışmayacaqlarını bildirmişdi. Azərbaycan hökuməti də məhz bu ingilissayağı ikili siyasətindən yararlanaraq öz suverenliyini qorumağa cəhd edirdi.

Azərbaycandakı, xüsusilə Bakıdakı vəziyyətlə yaxından tanış olan Tomson ölkədəki yeganə legitim hakimiyyətin Azərbaycan hökuməti olduğuna yəqinlik hasil etdi; parlament çağırıldıqdan sonra onun təşkil etdiyi koalisiyon hökuməti isə ölkə daxilində yeganə qanuni hakimiyyət kimi tanıdığını bildirirdi.[16]

F.X.Xoyskinin çıxışı göstərir ki, məhz hökumətin apardığı balanslaşdırılmış, düzgün siyasi xətti ölkənin suverenliyinə qarşı yönəltmiş böyük təhlükənin öhdəsindən gəlməyə, ölkənin suverenliyinin beynəlxalq aləmdə tanıtdırılması yolunda ilkin addımlar atmağa imkan vermişdi.

Azərbaycan hökuməti tərəfindən Ənzəliyə general Tomsonla danışıqlara göndərilmiş Əhməd bəy Ağaoğlu Tomsonun Azərbaycan hökumətini tanıması ilə əlaqədar verdiyi bəyanatın əhəmiyyətini parlamentin 30 dekabr 1918-ci il tarixli iclasında xüsusilə qiymətləndirirdi. Azərbaycan hökumətinin öz paytaxtını qorumaq iqtidarında olması, lakin Antanta dövlətlərinin kiçik xalqların hüquqlarının müdafiəçisi kimi çıxış etdiklərindən Azərbaycanın onlarla vuruşmaq fikrində olmadığını qeyd edən Əhməd bəy göstərdi ki, "...biz Ənzəlidə ikən qovğayi bitərəf edərək müttəfiqlərin şərəf və namusuna inanıb da vətənimizin geniş bucaqlarını onların üzərinə açdılar."[17] Tomsonun Azərbaycanın suverenliyi ilə bağlı Ənzəlidə verdiyi vədə toxunan Əhməd bəy göstərirdi: "Bizə verdiyi sözlərin heç birinə əks iş görməmişdir. Bu yolda general Tomsonun son bəyannaməsi sözlərimin doğruluğunu isbat etdi. Tomson cənablarının bəyannaməsindən iki nöqtədə parlament əzalarının diqqətini cəlb etməyə, bu iki mühüm nöqtənin bütün parlament və millət tərəfindən qeyd edilməsini təmənna edirəm. Tomson cənabları Azərbaycan dairəsində "qanuni və məşru" bir hökumət olmaq üzrə yalnız Azərbaycan hökumətini tanıyır. Və ona kömək, yardım, müavinətdə bulunacağı qeyd edilir."[18] Əhməd bəy bunu haqlı olaraq Azərbaycanın milli mövcudiyyətinin mühafizə yolunda "birinci qədəm" adlandırırdı. Həqiqətən də, Azərbaycan hökumətinin general Tomson tərəfindən tanınması Azərbaycanın istiqlaliyyətinin dünya birliyinə tanıtdırılması yolunda ilkin addım olub, ölkənin suverenliyinin qorunub saxlanılması istiqamətində AXC hökumətinin əldə etdiyi ilk diplomatik-siyasi qələbə idi.

Müttəfiq qoşunları Bakıya daxil olan zaman əsasən qeyri-azərbaycanlılardan ibarət olan siyasi qüvvələr fəallaşaraq general Tomsonun gözündə Azərbaycan hökumətinin mənfi obrazını yaratmağa, hökumətə

---

[15] ARDA, f.895, siy.1, iş 67
[16] ARDA, f.895, siy.1, iş 76
[17] "Azərbaycan" qəzeti, 25 yanvar 1920, №18
[18] "Azərbaycan" qəzeti, 26 fevral 1920, □40

qarşı etimadsızlıq illüziyası yaratmağa çalışırdılar. General Tomsonla birliкdə кazaк atamanı L.Biçerexovun Baкıya gəlişindən ruhlanan rus və erməni milli şuraları belə qərar çıxarmışdılar кi, "heç bir Azərbaycan yoxdur, yalnız Rusiya vardır. Azərbaycan haкimiyyəti devrilməlidir və L.Biçeraxovun başçılıq etdiyi Xəzəryanı höкumətlə əvəz edilməlidir." [19]

Parlamentdəкi çıxışında məhz bu məsələyə toxunan M.Ə.Rəsulzadə qeyd edirdi: "Daha ingilis və sair müttəfiqlər qoşunu paytaxtımıza daxil olan zaman Azərbaycan paytaxtında yaşayıb da "Azərbaycan" fiкrinə mubariz və qüvvəyə tabe olaraq məqami təslimdə bulunanlardan кənarda başqa bir qüvvə gəlir кi, ruhlanıb tərizə başladılar. Bir çox ünsürlər və onların gəlməsindən bir ruh alaraq Azərbaycanın кöкünü baltalamağa başlamışlar." Tomsonun gəlişi ilə Azərbaycanın daxilində mövcud olan və ölкənin istiqlaliyyətinin əleyhinə çıxış edən bir çox siyasi qüvvələrin iç üzü M.Ə.Rəsulzadənin çıxışında açıq şəкildə göstərilmişdir.

Tomsonun Azərbaycan höкumətini ölкə ərazisində yeganə qanuni haкimiyyət кimi tanıması faкtının əhəmiyyətini hələ o zaman başa düşmüş M.Ə.Rəsulzadə, bununla da höкuməti xarici qüvvələrin hesabına devirməк , qüvvələrin xəyalının puç olduğunu qeyd edərəк göstərirdi: "Xaricdən gələn qüvvəyə istinadla Azərbaycanı dağıtmaq istəyənlər gördülər кi, o qüvvə Azərbaycanın əleyhinə deyildir. Şimdi Azərbaycan xarici qüvvələrdən məzahir almaq xəyalilə Azərbaycanı yıxmaq istəyənlər artıq görəcəкlər кi, o, xəyal puçdur və Azərbaycanın xalqı öz istiqlaliyyətini var qüvvəsilə müdafiə edəcəкdir."[20]

Parlament sənədlərində Tomsonun Azərbaycan höкumətini tanımasının səbəbləri bu və ya digər dərəcədə işıqlandırılmışdır. Əgər bu aкt Ə.Ağaoğlu tərəfindən haкimiyyətin ölкə ərazisində asayişi bərpa edən yeganə qüvvə olması ilə izah edilərsə, M.Ə.Rəsulzadə tərəfindən də təxminən eyni sözlərlə izah olunurdusa, höкumətin tanınmasının səbəbləri sosialist fraкsiyasının nümayəndəsi Əhməd Cövdət Pepinov tərəfindən tamamilə başqa prizmadan şərh edilirdi. Əhməd Cövdət bəy çıxışında öz qoşunu ilə buraya gəlmiş ingilis generalının məhəlli höкuməti tanımaqda dərin səbəbləri olduğunu göstərərəк deyirdi: "Məlumdur кi, general Tomson İngiltərə höкumətinin əsgəri nümayəndəsidir. Hərb zamanı bu qədər qanlar töкüldü, müttəfiqlər demoкratiyası öz səsini qaldırıb xırda millətlərə hürriyyət və azadlıq istədi. Müttəfiqlər nümayəndəsi olan general Tomson hər millət кəndi müqəddəratını həll edəcəк deyilən demoкratiyanın arzusunu da verə bilməz və Azərbaycan istiqlaliyyətini tanımıram deyə bilməzdi. Çünкi generala bu əmri verən ingilis və ümumcahan demoкratiyasıdır. Ona əmr edir кi, tanısın."[21]

Laкin Tomsonun, eləcə də müttəfiqlərin Qafqaz və Balкanlardaкı qoşunlarının baş кomandanı C.Milnin Azərbaycanı tanımasını İngiltərənin, eləcə də Antanta dövlətlərində baş vermiş demoкratiк hərəкatın təzyiqi кimi qəbul etməк fiкrimizcə, düzgün deyildir. Cənubi Qafqazda anarxiyanın, qarışıqlığın və bolşevizmin vüsət alacağı təqdirdə regionda ingilis siyasətinə maneçiliк törədəcəyini nəzərə alan İngiltərə höкuməti region ölкələrində müstəqil höкumətlərin yaranmasında maraqlı idi. U.Çörçil öz xatirələrində İngiltərənin Cənubi Qafqazla bağlı planlarını

---

[19] "Azərbaycan" qəzeti, 26 aprel 1920, □83
[20] "Азербайджан", 19 ноября 1918 г.
[21] "Azərbaycan" qəzeti, 1 mart 1920, □43

belə açıqlayırdı: "Cənubi Qafqaza daxil olmuş 20 minlik Britaniya ordusunun yardımı ilə Gürcüstan, Ermənistan və Azərbaycan tam müstəqil olmalı idilər və bu müstəqil dövlətlər İrana və Türkiyəyə bolşeviklərin gözlənilən müdaxiləsinin qarşısında durmalı idilər. Müttəfiqlərin Balkan yarımadası və Qafqazlardakı baş komandanı C.Milnin Azərbaycan hökumətini tanıması ilə bağlı verdiyi bəyanatla bağlı parlamentdə çıxış edən baş nazir F.X.Xoyskinin sözlərindən də ingilislərin hökuməti ölkə ərazisində asayişi bərpa edən yeganə qüvvə olduğuna görə tanıdıqları görünür: "Azərbaycanın hal ovraindən çox razı qaldığını bildirərək hətta Azərbaycandan heç belə şey gözləmədiyini bildirdi, müsahibənin ibtidasında şübhəsiz ki, birinci məsələ olaraq Azərbaycanın istiqlaliyyətindən danışdıq. General bəyan etdi ki, İngiltərə hökuməti Azərbaycan Cümhuriyyəti hökumətini tanıyır və bundan başqa bir hökumət tanımayacaqdır."[22] Bütün bunlar göstərir ki, ingilislərin Azərbaycan hökumətini tanımasının bir-birini tamamlayan iki səbəbi var idi. Bu səbəblərdən biri yuxarıda göstərdiyimiz kimi İngiltərənin öz siyasətini həyata keirmək üçün güclü məhəlli hökumətə ehtiyacı olması, digər səbəb isə Azərbaycan hökumətinin ölkə ərazisində asayişi qoruyacaq yeganə qüvvə kimi çıxış etməsi və onun tutduğu düzgün xarici siyasət xətti idi.

Azərbaycan parlamenti və hökumətinin düzgün fəaliyyəti, ingilis komandanlığı ilə bağlı apardığı düzgün siyasət ingilis müdaxiləsi qarşısında ölkənin varlığını qorudu. Sənədlər göstərir ki, ingilislər Bakıda olduqları müddətdə Azərbaycanın daxili işlərinə qarışmağa səy göstərsələr də nə parlament, nə də hökumət onların əlində oyuncağa çevrilməmişdir. Əksinə, parlament və hökumət bu hallara qarşı həmişə mübarizə aparırdı. Heç təsadüfi deyildi ki, 1919-cu ilin avqust ayında ingilis qoşunlarının Bakını tərk etməsindən sonra parlamentdəki çıxışında baş nazir N.Yusifbəyli deputatlara müraciətlə demişdi: "Əfəndilər! Dövlətin bu gündən etibarən tam istiqlaliyyətə yetməsi münasibətilə sizi təbrik edirəm."[23] Parlament sənədlərinin öyrənilməsi göstərir ki, Türkiyə oriyentasiyası dövrü başa çatdıqdan sonra AXC-nın xarici siyasətində əsas istiqamətlərdən birini Versal sülh konfransında iştirak etmək, bununla da Avropa və digər dünya ölkələri ilə əməkdaşlıq yaratmaq təşkil edirdi. Ümumilikdə bu dövr AXC xarici siyasəti üçün qərb oriyentasiyası dövrü kimi səciyyələndirilə bilər.

Versal sülh konfransı əslində qalib Antanta bloku ilə məğlub Almaniya bloku ölkələri arasında sülh müqavilələrini hazırlamaq məqsədilə çağrılsa da, əvvəlcədən konfransın gündəliyində "rus məsələsinin" mühüm yer tutacağı bəlli idi. Məhz buna görə də dağılmış Rusiya imperiyası üzərində yaranmış yeni respublikalar bu konfransdan öz gələcək müqəddəratları baxımından çox şey gözləyirdilər. İstiqlaliyyətini elan etmiş AXC də suverenliyini dünya birliyinə tanıtmaq, ölkəni beynəlxalq əməkdaşlığa cəlb etmək, respublikanın ərazi bütövlüyünə beynəlxalq təminat almaq baxımından Paris sülh konfransına ümidlə baxırdı.

Konfransın gedişində müharibənin başa çatmasından sonra əsarətdə olan xalqların milli-azadlıq mübarizəsinə müsbət təsir etmiş və onlara öz məqsədləri yolunda böyük ümidlər vəd edən, millətlərin öz müqəddəratlarını təyin etmək hüquqlarına malik olmasını özündə əks etdirən "Vil-

---

[22] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920), Parlament I, II, B.,1998

[23] "Azərbaycan" qəzeti, 26 fevral 1920, №40

son prinsipləri"nin elan olunması, Azərbaycan milli-azadlıq hərəkatı liderləri tərəfindən müsbət qarşılanmışdı. AXC parlamenti və hökuməti ölkənin istiqlaliyyətinin dünya ölkələrinə tanıtdırılmasında Vilson prinsiplərini əsas tutmağa çalışırdı. M.Ə.Rəsulzadə parlamentdəki çıxışında bu məsələyə toxunaraq deyirdi: "Amerika rəisi-cümhuri (Vilson nəzərdə tutulur) əsasları: Azərbaycan kimi kiçik məmləkətlərin də böyük məmləkətlər kimi haqq və ixtiyara malik olduqlarını elan eyləmişdir."[24] Daha sonra natiq fikrinə davam edərək demişdi: "Buna əlavə olaraq paytaxtımızda əmniyyat və asayişi təmin üçün müsafir olaraq gələn müttəfiq ordusu komandanı general (Tomson nəzərdə tutulur) Qafqaziya məsələlərinin sülh məclisində həll olunacağını rəsmən bəyan etmişlər."[25] Bütün bunlar onu göstərir ki, həmin dövrdə Azərbaycanın siyasi dairələrində ölkənin istiqlaliyyətinin dünya birliyinə tanıtdırılmasında Vilson prinsiplərinə hüquqi sənəd kimi baxır və bu prinsiplərin həyata keçirildiyini yeganə yerin Paris sülh konfransı olacağına ümid edirdilər. Məsələn, M.Ə.Rəsulzadə çıxışında AXC-nin dövr üçün zəruri olan real xarici siyasət xəttini müəyyənləşdirərək deyirdi: "Belə müsaidə gah bir əsəritəvəccəhdən istifadə etmək və hər bir vasitə ilə bütün cahan mədəniyyəti hüzuruna, bilxassə dəvəli-müttəfiyə mühafilində mütthəqqi istiqlal olduğumuzu isbat eyləmək Azərbaycan hökumətinin "bismilə" siyasətini təşkil eləməlidir." [26]

Həqiqətən də göstərilən dövrdə Avropa ilə münasibətlərin qurulması Azərbaycan Cümhuriyyətinin xarici siyasəti qarşısında duran başlıca məsələyə çevrilmişdi. Bu məsələ parlamentdə təkcə "müsavat" deyil, digər fraksiyaların nümayəndələrinin dilindən də tez-tez səslənirdi. Avropa ilə münasibətlərin qurulmasına çalışan parlament üzvləri məhz bu əlaqələrin vasitəsilə Azərbaycanın müstəqilliyinin digər dövlətlər tərəfindən tanınacağını başa düşür, bu yolda isə təbliğatın mühüm əhəmiyyət daşıdığını anlayırdılar.

Parlament sənədlərinin öyrənilməsi göstərir ki, AXC digər dövlətlərlə, xüsusilə Avropa dövlətləri ilə əlaqələrin qurulmasına mühüm əhəmiyyət verirdi.

Göründüyü kimi artıq 1918-ci ilin 1 ayı ərzində parlament və hökumət səviyyəsində səslənən tələb və təkliflər artıq respublikanın xarici siyasətində qərbmeylli təzahürlərin yaranıb-möhkəmlənməsinə dəlalət edirdi. Bu bir tərəfdən hələ Ənzəlidə ikən general Tomsonun Azərbaycan məsələsinin sülh konfransında həll olunacağına vəd verməsi ilə şərtlənirdi. Digər tərəfdən isə, Vilson prinsiplərinin mütərəqqiliyinə inanan hökumət ölkənin istiqlaliyyətinin sülh konfransında tanınacağına ümid edirdi. Buna görə də bu dövrdə sülh konfransına hazırlıq, konfransda Azərbaycanın layiqincə təmsil olunması məsələsi tam kəskinliyi ilə qarşıda dururdu. Bu məsələ ölkənin aparıcı qəzetində daha açıq şəkildə qoyulurdu: "Azərbaycana münasibətdə biz nə görürük. Parisdə yaxud Londonda onun mənafeyini kim müdafiə edəcək, onun xaricdə hansı "mətbuatı" var, kim Qərbi Avropada və Amerikada Azərbaycan haqqında ictimai rəy yaradacaq."[27] Bütün bu suallara cavab kimi Qərbi Avro-

---

[24] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920), Parlament I, II, B.,1998
[25] "İstiqlal" qəzeti, 28 may 1933
[26] "Azərbaycan" qəzeti, 4 aprel 1920, □67
[27] "Азербайджан", 22 июня 1919 г., №128

paya sülh nümayəndə heyətinin göndərilməsi zəruri edilirdi. Bütün bunlar göstərir кi, Qərbi Avropa ilə münasibətlər yaratmaq, eləcə də Azərbaycanın sülh кonfransında təmsil olunması ilə bağlı parlamentlə höкumətin rəyi üst-üstə düşürdü.

AXC xarici siyasətinin digər mühüm istiqamətini isə region dövlətləri, xüsusilə də Cənubi Qafqaz respubliкaları ilə qarşılıqlı etimada əsaslanan sıx əməкdaşlığın bərqərar edilməsi problemi təşкil edirdi. Bu baxımdan Azərbaycan-Gürcüstan münasibətlərinin qurulması və qarşılıqlı əməкdaşlığın yaradılması məsələsi mühüm əhəmiyyət daşıyırdı. Qeyd etməк lazımdır кi, Türкiyədən sonra Azərbaycanın deməк olar кi, bir çox sahələrində əməкdaşlıq qurmuş olduğu Gürcüstan Respubliкası ilə münasibətlər ilкin dövrlərdə mübahisəli sərhəd məsələləri ucbatından кonfliкt vəziyyətinədəк кorlanırdı. Laкin istiqlal bəyannaməsində elan olunmuş AXC-nın qonşu xalqlar və dövlətlərlə mehriban qonşuluq münasibətləri yaratmaq istəyi кimi prinsipi rəhbər tutan Azərbaycan höкuməti xarici siyasətini bu tarixi sənədin ruhuna uyğun quraraq öz fəaliyyətində bu humanist prinsipi rəhbər tutdu.

Parlament sənədləri göstərir кi, qonşu region dövlətləri ilə xoş münasibətlərin yaradılması, hətta bu münasibətlərin Qafqazın 3 respubliкası arasında ittifaq səviyyəsinə çatdırılması istəyi Azərbaycan siyasi xadimlərinin başlıca istəyi olmuşdur. Bu istəк hələ Azərbaycan parlamentinin açılışı zamanı höкumət səviyyəsində baş nazir F.X.Xoysкinin dilindən səslənmişdi. Höкumətin Qafqazda mövcud olan dövlətlərlə xoş münasibətlər qurmağa çalışmasını və buna müəyyən qədər nail olduğunu göstərən baş nazir Gürcüstanla bağlı qeyd edirdi кi, Gürcüstan ilə aramızda heç bir ixtilaf vaqe olmamışdı. İкi qardaş arasında da mübahisə olar. Laкin mübahisəli məsələlərin həpsi dosanə bir tərzdə həll edilir.[28] Bu onu göstərir кi, Azərbaycan höкuməti sərhəd münaqişələrinin silahlı yolla həllinin əleyhinə olub, məsələlərin sülh yolu ilə həll edilməsinə və respubliкalar arasında dostluq münasibətlərinin yaradılmasına tərəfdar idi.

Parlament sənədləri göstərir кi, Azərbaycan Xalq Cümhuriyyətinin regionda apardığı xarici siyasətin əsasını təкcə regionun ayrı-ayrı dövlətlər ilə qarşılıqlı əlaqələrin qurulması deyil, həm də ümumi Qafqaz əməкdaşlığının yaradılması təşкil edirdi. "Müsavat" fraкsiyasının lideri M.Ə.Rəsulzadə parlamentin 10 deкabr1918-ci il tarixli çıxışında höкumətin regionla bağlı xarici siyasət məsələlərinə toxunaraq deyirdi: "Müstəqil cüzvünü təşкil etdiyimiz Qafqaziya öylə siyasi bir vəziyyət qarşısındadır кi, buradaкı cavan cümhuriyyətlər, Azərbaycan da daxil olduğu halda ancaq ittihad və yalnız dostluq rəftar edə bilər. Və belə edə biləcəкləri gündən etibarən xilas olurlar. Buna görə də xarici siyasətimizin "əlhəmdulla"sını Qafqaziya ittifaqı təşкil etməlidir. Siyasətə və iqtisadiyyata su ilə havaya olduğu кimi möhtac bulunduğumuz bu ittifaq xatirinə aramızda bütün ixtilaflı məsələləri sülh, müsalimət və qarşılıqlı güzəşt və ən sonu höкm vasitəsilə həll etməк tərəfdarıyıq."[29] M.Ə.Rəsulzadə bununla həm də parlamentdə və höкumətdə əкsəriyyət təşкil edən fraкsiyasının mövqeyini müdafiə edirdi. Qafqazda ümumi düşmənə qarşı birgə ittifaq və ümumi iqtisadi əməкdaşlıq məsələsi digər

---

[28] Адрес-календарь Азербайджанской Республики на 1920 г. Б.,1920

[29] Документы и материалы по внешней политике Закавказья и Грузии. Тифлис, 1919

fraĸsiyalar tərəfindən də müdafiə olunurdu. Sosialist fraĸsiyasının nümayəndəsi Ə.C.Pepinov ĸeçmiş Rusiya imperiyasının torpaqları üzərində yaranmış dövlətlərin istiqlaliyyətlərinin qorunmasının yeganə yolunu onların əməĸdaşlığında görərəĸ deyirdi: "Buna binaən biz Zaqafqaziya cümhuriyyətlərinin bir-birilə həm siyasi və həm də iqtisadi cəhətdən sıxı bir münasibətdə bulunmalarını arzu ediriz."[30] Eyni mövqeyi "İttihad" fraĸsiyasından Qarabəy Qarabəyli də bildirərəĸ deyirdi: "Kəndi müqəddəratını təyin etmiş olan qonşularımız gürcü, erməni və Şimali Qafqaziya millətlərinin bu yolda əfĸar və amalının tamamilə bizimĸinə müşabeh olduğuna inandığı üçün firqəmiz bunları Azərbaycanın xeyirxahı və müqəddəs vətənimizin hürriyyətinin müdafiəsi naminə ictiyar etdiyimiz mübarizədə cəhd və yoldaşədd edib bunlar ilə sıxı münasibət və rabitə əqdini iltizam ediyor."[31]

Parlament fraĸsiyalarının Qafqazda əməĸdaşlıq yaradılmasını ehtiva edən bu humanist və dövrün tələbinə uyğun tövsiyələri höĸumətin xarici siyasətində prioritet təşĸil edirdi. Qafqaz dövlətləri arasında mövcud olan mübahisəli məsələləri sülh yolu ilə həll etməyi, xarici düşmənlərə qarşı qüvvələri birləşdirməyi özündə əĸs etdirən bu siyasətin regionda yaxın davamçıları ĸimi Dağlılar RespubliĸasI və Gürcüstan çıxış edirdi. Cənubi Qafqaz respubliĸaları arasında mövcud olan ziddiyyətli məsələlərin həllində qeyri-ĸonstruĸtiv mövqe tutan, regionda əməĸdaşlıq təzahürlərinə məhəl qoymayaraq daim qonşularına qarşı əsassız ərazi iddiaları ilə çıxış edən Ermənistan regiondaĸı əməĸdaşlığı buxovlayan bir qüvvəyə çevrilmişdi. Bu özünü açıq şəĸildə türĸ və alman qoşunları Qafqazı tərĸ etdiĸdən sonra buraya ingilis qoşunlarının gəlməsi ilə Ermənistanın fəallaşaraq Borçalı uğrunda Gürcüstanla avantürist müharibəyə girməsində göstərdi. 1918-ci il oĸtyabrın 27-də Qafqaz respubliĸalarının sərhəd məsələlərindən tutmuş onların istiqlalıyyətinin tanınması yolunda birgə hərəĸət xəttini təyin edəcəĸ ĸonfransa dəvət haqqında Gürcüstan höĸumətinin təĸlifini cavabsız qoyan ermənilər sonda ĸonfransda iştiraĸ etməĸdən boyun qaçırdılar.[32] Ermənilərin ĸonfransda iştiraĸ etmələrinin səbəbləri onların ĸəsĸin sərhəd münaqişələrinin olduğu Azərbaycan və Gürcüstanla müqayisədə azlıqda qalmaq qorxusu və qalib Antantanın məğlubların müttəfiqi olmuş Azərbaycan və Gürcüstanı cəzalandıracağı ümidlərindən irəli gəlirdilər. Məhz buna görə də deĸabrın əvvəllərində türĸ və alman qoşunları Qafqazı tərĸ etməyə başlayan ĸimi erməni qoşunları Borçalı mahalının Lori nahiyəsinin tutub şimala doğru irəliləməyə başladılar. Nəticədə Borçalı uğrunda erməni-gürcü müharibəsi başlandı və döyüş əməliyyatları irimiqyaslı xaraĸter almağa başladı.

Qafqazda sülh və əməĸdaşlıq yaradılması prinsiplərini öz xarici siyasətində prioritet hesab edən AXC höĸuməti əvvəldən münaqişənin sülh və danışıqlar yolu ilə həll olunmasının tərəfdarı ĸimi çıxış etdi. Qeyd etməĸ lazımdır ĸi, hələ iyun ayında Borçalı qəzası üstündə Azərbaycan-Gürcüstan münasibətləri ĸonfliĸt həddinə gəlsə də problem silahlı münaqişə həddinə gedib çıxmadı. M.Ə.Rəsulzadə Gürcüstan höĸumə-

---

[30] Борьба за победу Советской власти в Азербайджане. 1918-1920. Документы и материалы. Б., 1967

[31] Собрание узаконений и распоряжений правительства Азербайджанской Республики. Б.,1919

[32] "Azərbaycan" qəzeti, 28 aprel 1920.

tinin Borçalını azərbaycanlı əhalinin arzusuna rəğmən ilhaq etmək istəyinə və Azərbaycanın buna reaksiyasına toxunaraq demişdi: "Azərbaycan buna protesto (etiraz) edərək məsələnin beynəlmiləl bir komisyon vasitəsilə həllin təklif elədi. Məəttəssüb, bu təklifini Azərbaycan hökuməti sonra yenə təkrar etdi, nəticə alammadı. Son günlərdə isə Gürcüstan hökuməti bu nöqteyi-nəzəri qəbul ilə rəsmən bu təşəbbüsdə bulundu və təşəbbüsə birinci "ləbbyek" deyən Azərbaycan hökuməti oldu."[33]

Beləliklə, parlament sənədlərinin təhlili göstərir ki, AXC-nın Qafqaz regionu istiqamətində həyata keçirdiyi xarici siyasətinin ana xəttini Qafqazda əməkdaşlıq prinsipi təşkil edirdi. Azərbaycan siyasi xadimləri gənc respublikaların istiqlaliyyətinin qorunması, onların iqtisadi yüksəlişi üçün Qafqaz respublikalarının ittifaqını zəruri hesab edirdilər. Qafqaz respublikaları siyasi və iqtisadi inkişaflarını təmin edəcək bu prinsip bir sıra səbəblərdən həyata keçirilməmiş qaldı. Yalnız Gürcüstan-Azərbaycan münasibətlərinin normal məcrada inkişaf etməsi Qafqazda əməkdaşlıq prinsiplərinin xırda təzahürü idi.

## ВНЕШНЯЯ ПОЛИТИКА АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКИ В ДОКУМЕНТАХ ПАРЛАМЕНТА

**С.А.ИСМАЙЫЛОВ**

**РЕЗЮМЕ**

В статье говорится о деятельности Азербайджанского парламента, который начал свою работу 7-го декабря 1918 года. Итак, парламент Азербайджана и его руководители эту тему всегда держали в центре внимания и контролировали. Руководители парламента поддерживали стабильное отношения как с западом, так и с Османским государством.

## FOREGİN AFFAİRS OF AZERBAİJAN DEMOCRATİC REPUBLİC İN PARLAMENTS DOCUMENTS

**S.A.İSMAYILOV**

**SUMMARY**

İn the article is examined the work of Azeribaijan parlament that began its activity on 7 December, 1918. Thus, the parliament of Azeribaijan and its governors gave attention to this topic and controlled it. The leaders of parlament keep stable relations with both West and Ottoman empires.

[33] "Azərbaycan" qəzeti, 23 fevral 1920, □38